# Azərbaycan Avrasiya məkanında mühüm nəqliyyat qovşağı, beynəlxalq əhəmiyyətli neft-qaz tranziti ölkəsidir

*İlham Əliyev:*

## Şimal-Cənub dəhlizi bizə çox böyük iqtisadi mənfəət gətirəcək. Azərbaycandan keçən bu yol milyonlarla əlavə yükün bizim ərazimizdən daşınması deməkdir. Bu da həm siyasi, həm iqtisadi gəlirlər gətirəcək

**Asiya və Avropanın qovşağında yerləşən, Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında etibarlı tərəfdaş, qlobal enerji və nəqliyyat layihələrinin fəal iştirakçısı, beynəlxalq tədbirlər məkanı kimi tanınan Azərbaycanın bugünkü uğurları ulu öndər Heydər Əliyevin dahiyanə, uzaqgörən siyasətinin ölkə başçısı İlham Əliyev tərəfindən layiqincə davam etdirilməsinin parlaq təzahürüdür.**



Məhz Ümummilli Liderin rəhbərliyi ilə həyata keçirilən nəqliyyatın inkişafı siyasətinin təməlində ölkə ərazisində beynəlxalq və tranzit dəhliz və yolların, ölkənin regionlararası, şəhər və rayondaxili yol-nəqliyyat infrastrukturunun inkişafı, eləcə də milli nəqliyyat-yol sisteminin dünya kommunikasiya məkanına sürətli inteqrasiyası dururdu. Ulu Öndərin uzaqgörən və düşünülmüş siyasəti sayəsində TRASEKA, Şimal-Cənub nəqliyyat dəhlizi, İNOGEYT Proqramının həyata keçirilməsi üçün mühüm işlərin təməli qoyuldu. Məhz həmin nəhəng layihələrin uğurla reallaşması nəticəsində Azərbaycan Xəzər regionunda əsas nəqliyyat qovşağına və beynəlxalq əhəmiyyətli neft-qaz tranziti ölkəsinə çevrildi.

Cənubi Qafqazın lider dövləti olan Azərbaycanın TRASEKA proqramında iştirakının çox böyük strateji əhəmiyyəti olduğu kimi, ölkəmizin Avrasiya məkanında iqtisadi əlaqələrinin daha da möhkəmləndirilməsində, Avropaya inteqrasiyasının sürətləndirilməsində, eləcə də beynəlxalq nəqliyyat qovşağına çevrilməsində böyük rolu olmuşdur. 1998-ci ilin sentyabrında Bakı şəhərində doqquz ölkənin dövlət başçılarının, ondan çox beynəlxalq təşkilatın, otuzdan artıq dövlətin nümayəndə heyətinin iştirakı ilə Tarixi İpək Yolunun bərpasına həsr olunmuş Beynəlxalq Konfrans keçirilmiş, Avropa İttifaqının TRASEKA Proqramı əsasında "Avropa-Qafqaz-Asiya dəhlizinin inkişafı üzrə beynəlxalq nəqliyyat haqqında Əsas Çoxtərəfli Saziş" imzalanmış, həmçinin Bakı Bəyannaməsi qəbul edilmişdir.

Prezident İlham Əliyevin düşünülmüş, çevik və qətiyyətli, uzaqgörən iqtisadi siyasəti sayəsində qazanılmış uğurlar daha da möhkəmləndirilmiş, ölkəmizin Avrasiya məkanında tranzit ölkə kimi əhəmiyyəti daha da artmışdır.

Ölkənin etibarlı nəqliyyat sisteminin inkişafının zəruriliyini nəzərə alaraq transmilli nəqliyyat layihələri çərçivəsində, o cümlədən TRASEKA və Şimal-Cənub beynəlxalq dəhlizlərinin Azərbaycana aid hissəsində avtomobil magistrallarının tikintisi və yenidənqurulması, regionlarda yol şəbəkələrinin bərpası işləri həyata keçirilmişdir. Bakı-Tbilisi-Qars dəmir yolunun inşası nəticəsində Avropa və Asiya arasında birbaşa dəmir yolu əlaqəsinin yaradılması mümkün olacaqdır.

Prezident İlham Əliyevin 21 oktyabr 2015-ci ildə imzaladığı Azərbaycan Respublikasının "Tranzit Yükdaşımalar üzrə Koordinasiya Şurasının yaradılması haqqında" fərmanı ölkəmizin ərazisindən beynəlxalq yükdaşımalar kimi strateji sahənin yeni mərhələyə qədəm qoymasını bir daha sübut edir. Bu fərmana görə ölkəmizin ərazisindən dəmir yolları, dəniz nəqliyyatı, dəniz limanları və dəniz terminalları vasitəsilə tranzit yüklərin daşınmasında "bir pəncərə" prinsipi tətbiq olunur. Həmçinin Azərbaycan ərazisindən dəmir yolları, dəniz nəqliyyatı, dəniz limanları və dəniz terminalları vasitəsilə tranzit yüklərin daşınmasında "bir pəncərə" prinsipinin tətbiqi üzrə vahid dövlət orqanının səlahiyyətlərinin həyata keçirilməsi Azərbaycan Respublikasının Tranzit Yükdaşımalar üzrə Koordinasiya Şurasına həvalə edilir. Şura görülən işlər-dəmir yolları, dəniz nəqliyyatı, dəniz limanları və dəniz terminalları vasitəsilə tranzit yüklərin daşınması barədə ildə iki dəfə ölkə başçısına məlumat verəcək. İqtisadiyyat və Sənaye Nazirliyi də öz növbəsində dəmir yolları və dəniz nəqliyyatı ilə tranzit yükdaşıma xidmətlərinin, habelə tranzit yüklərlə bağlı liman qurğularının istismarı, yükaşırma və dəniz limanında göstərilən digər xidmətlərin tariflərinin və həmin tariflər üzrə güzəştlərin müəyyən edilməsi qaydasını iki ay müddətində hazırlayıb Azərbaycan Prezidentinə təqdim etməli, Azərbaycan Respublikasının Tranzit Yükdaşımalar üzrə Koordinasiya Şurası ilə birlikdə ölkənin dəmir yolları, dəniz nəqliyyatı, dəniz limanları və dəniz terminalları vasitəsilə tranzit yükdaşımalarla bağlı özündə yükdaşımaların vahid tariflərini, sərhədkeçmə prosedurlarını, yükdaşımalar üzrə daşıma qaydalarını və şərtlərini, o cümlədən müqavilələrin şərtlərini və bağlanma qaydasını, Azərbaycan Respublikasının dövlət sərhədindən keçmə zamanı inzibati prosedurlara dair elektron müraciətlərin qəbulu və yüklərin daşınması sahəsində müqavilələrin elektron üsullarla bağlanması imkanlarını, yüklərin izlənməsi və daşıma prosesləri ilə əlaqədar digər məsələləri əks etdirən elektron portalın yaradılmasını təmin etməlidir.

Prezident İlham Əliyev tərəfindən həyata keçirilən tədbirlər, görülən işlər qətiyyətlə deməyə imkan verir ki, ölkəmizin ərazisindən keçən nəqliyyat dəhlizlərinin beynəlxalq standartlara cavab verə biləcək səviyyədə qurulması, nəqliyyat vasitələrinin yenilənməsi və infrastrukturun ən yüksək standartlara uyğunlaşdırılması dövlətin iqtisadi siyasətinin mühüm bir istiqamətinə çevrilib. Neft gəlirlərinin iqtisadiyyatın digər sahələrinə, xüsusilə də qeyri-neft sektoruna yönləndirilməsi ciddi uğurların əldə edilməsinə səbəb olub. Son dövrlərdə yeni bərələrin, tankerlərin, yük gəmiləri və təyyarələrin alınmasını, eləcə də bir neçə beynəlxalq aeroportun tikildiyini, dəmir və avtomobil yollarının inkişafı ilə bağlı ciddi addımlar atıldığını, Xəzər hövzəsində ən böyük ticarət limanı-Beynəlxalq Dəniz Ticarəti Limanının inşa olunması bunun əyani sübutudur. Azərbaycan Respublikasının Tranzit Yükdaşımalar üzrə Koordinasiya Şurasının yaradılması beynəlxalq yükdaşımaların müasir tələblər səviyyəsində koordinasiya edilməsi, bu sahədə şəffaflığın artırılması, dövlət orqanlarının fəaliyyətinin əlaqələndirilməsi, sərfəli qiymətlər tətbiq etməklə yüklərin iqtisadi cəhətdən daha əlverişli şərtlərlə daşınmasında mühüm rol oynayacaqdır.

Prezident İlham Əliyev Nazirlər Kabinetinin bu ilin doqquz ayının yekunlarına həsr olunmuş iclasındakı çıxışında bir daha qeyd etdi ki, həyata keçirilən bütün bu tədbirlərin əsas hədəfi ölkəmizin dünya miqyasında nəqliyyat-logistika mərkəzi kimi mövqelərinin daha da möhkəmləndirilməsi, respublikamızın tranzit dəhlizlərinin rəqabət qabiliyyətinin və səmərəliliyinin artırılması, həmin dəhlizlərə böyük həcmlərdə tranzit yük axınlarının cəlb edilməsi, bu sahədəki neqativ halların aradan qaldırılmasıdır: "Ancaq bununla bərabər, burada koordinasiya işləri aparılmalıdır. Ona görə ki, Şimal-Cənub dəhlizi bizə çox böyük iqtisadi mənfəət gətirəcək. Azərbaycandan keçən bu yol milyonlarla əlavə yükün bizim ərazimizdən daşınması deməkdir. Bu da həm siyasi, həm iqtisadi gəlirlər gətirəcək. İndi həm ölkələr, həm də şirkətlər arasında yüklər uğrunda mübarizə, rəqabət gedir. Amma biz burada oturmuşuq, nəyisə gözləyirik. Gözləyirik ki, kimsə gəlib bizdən xahiş edəcək. Xahiş edəndə də elə şərtlər qoyulur ki, o xahiş edən üz döndərib gedir. Bu, dözülməz haldır. Bu məsələ ciddi təhlil edilməlidir və burada vahid tarif siyasəti aparılmalıdır".

Qeyd etmək lazımdır ki, bu ilin avqust ayında Çindən beynəlxalq Transxəzər nəqliyyat marşrutu üzrə gələn birinci konteyner qatar Bakı Beynəlxalq Dəniz Ticarət Limanına gəlmişdi. Bu konteyner qatarının gəlişi dəmir yolları rəhbərlərinin 2013-cü ildə yaradılmış Beynəlxalq Transxəzər Nəqliyyat Marşrutunun inkişafı üzrə Əlaqələndirmə Komitəsinin iclaslarında əldə etdikləri tarif siyasəti və əlverişli texniki şəraitin yaradılması ilə bağlı danışıqların nəticəsidir. Qeyd edək ki, 82 konteyner və 41 platformadan ibarət olan bu qatar iyulun 28-i Çinin Şixezi əyalətindən yola düşmüşdü. Bu sınaq konteyner qatarı 82 ədəd 20 tonluq konteyner daşıyır və daşınan yük kaustik sodadır. Bu təyinatlı yüklər alternativ marşrutlarla əvvəllər 25-40 gün müddətində Bəndə-Abbas və Poti limanları vasitəsilə daşınırdı. İndi isə qatar cəmi 6 gün müddətində Bakıya çatıb.

Qətiyyətlə demək olar ki, ölkə başçısı İlham Əliyevin rəhbərliyi bütün sahələrdə olduğu kimi, nəqliyyat və beynəlxalq yük daşınmaları sahəsində həyata keçirilən unikal tədbirlər sabit, davamlı iqtisadi inkişafa malik olan ölkəmizin daha güclənməsinə, əhalinin həyat səviyyəsinin bunda sonra da yüksəlməsinə, xalqımızın firavanlığına hesablanmış uzunmüddətli strateji proqramların uğurla reallaşdırılmasının parlaq təzahürüdür.

**Zahid Rza,**
***"İki sahil"***